**Macarıstanın Budapeşt şəhərində Kənd təsərrüfatı və kənd yerlərinin statistikasının təkmilləşdirilməsinə dair Qlobal Strategiya üzrə iclas keçirilmişdir**



Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin Kənd təsərrüfatı və ekologiya statistikası şöbəsinin müdiri Rəşad Bayramov 03-04 iyul 2013-cü il tarixdə Macarıstanın Budapeşt şəhərində BMT-nin Ərzaq və kənd təsərrüfatı təşkilatı (FAO) və Müstəqil Dövlətlər Birliyinin (MDB) Statistika Komitəsi tərəfindən təşkil edilmiş iclasda iştirak etmişdir.

İclasın əsas məqsədi Dünya Bankı və BMT-nin Ərzaq və kənd təsərrüfatı təşkilatı (FAO) tərəfindən hazırlanmış "Kənd təsərrüfatı və kənd yerlərinin statistikasının təkmilləşdirilməsinə dair Qlobal Strategiya"nın MDB regionunda həyata keçirilməsi və bu zaman qarşıya çıxa biləcək problemlərin birgə həll yollarının müzakirə edilməsindən ibarət olmuşdur.

Sözü gedən tədbirdə MDB Statistika Komitəsindən, Müstəqil Dövlətlər Birliyinə üzv ölkələrdən Azərbaycan, Rusiya, Ukrayna, Belarus, Qazaxıstan, Qırğızıstan, Tacikistan, Özbəkistan, Moldova və Ermənistandan, eyni zamanda, FAO-nun mərkəzi və regional ofislərindən ümumilikdə 28 nəfər mütəxəssis iştirak etmişdir.



İclasın ilk günü MDB Statistika Komitəsinin İqtisadi statistika idarəsinin rəisi xanım İ.P.Qoryaçeva Dünya Bankı və BMT-nin Ərzaq və kənd təsərrüfatı təşkilatı (FAO) tərəfindən hazırlanmış "Kənd təsərrüfatı və kənd yerlərinin statistikasının təkmilləşdirilməsinə dair Qlobal Strategiya" barədə çıxış etmişdir. Qeyd edilmişdir ki, Qlobal Strategianın 5 regionda (Afrika, Latın Amerikası və Karib hövzəsi, Yaxın Şərq, Asiya və Sakit Okean, MDB) həyata keçirilməsi nəzərdə tutulur.

Strategiya kənd təsərrüfatı və kənd yerlərinin statistikasına dair göstəricilərin hazırlanması zamanı 3 aspektdən (iqtisadi, sosial və ekoloji) yanaşma tələb edir. Belə ki, ***İqtisadi aspekt*** kənd təsərrüfatı istehsalını, təsərrüfatları, bazarları və qeyri-kənd təsərrüfatından olan gəlirləri, ***Sosial aspekt*** ərzaq təhlükəsizliyini, gender statistikasını və risklərin idarə edilməsini, ***Ekoloji aspekt*** isə ətraf mühit, bitki örtüyü, bio yanacaq üçün kənd təsərrüfatı məhsullarının istehsalını və s. əhatə edir.

Daha sonra, MDB ölkələri üçün "Kənd təsərrüfatı və kənd yerlərinin statistikasının təkmilləşdirilməsinə dair Qlobal Strategiya"nın həyata keçirilməsi Planının layihəsi ilə əlaqədar müzakirələr olmuşdur. Müzakirələrdən sonra qərara alınmışdır ki, layihə iştirakçı ölkələr tərəfindən bir daha nəzərdən keçirilsin və iyul ayının sonunda rəy və təkliflər ümumiləşdirilmək üçün Müstəqil Dövlətlər Birliyinin (MDB) Statistika Komitəsinə göndərilsin.